№ 279 ISSN 1027-3875 15 dekabr 2009

KHAZAR VIEW

XƏZƏR XƏBƏR



ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK TOPLU

www.khazar.org

**ELMİ-KÜTLƏVİ,
BƏDİİ-PUBLİSİSTİK
TOPLU**

**1995-ci ilin
yanvarından ayda 2 dəfə çıxır**

Təsisçi:
XƏZƏR UNİVERSİTƏSİ

Baş redaktor:
Hamlet İSAXANLI

Baş redaktor müavini:
Əlirza BALAYEV

Redaksiya heyəti:
**Camal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Cəmil HƏSƏNLİ
Bəhlul ABDULLA
Nizami CƏFƏROV
Əfqan ABDULLAYEV**

Rəssam:
Rafiq ƏBDÜLRƏHİMOV

Kompüter tərtibatçısı:
Yəmən HAŞIMOVA
Fotomüxbir:
Könül ƏLİYEVA
Ünvanımız:
Bakı, Məhsəti küçəsi 11,
("Neftçilər" metrosunun yanı)
Faks: 498-93-79
Telefon: 421-79-16
421-10-93

Şəhadətnamə: 255
İndeks: 67178
Sifariş: 190
Tiraj: 3000

**Müəlliflərlə
redaksiyanın mövqeyi
üst-üstə düşməyə bilər
Əlyazmalar geri qaytarılmır
Xəzər Universitəsi
mətbəəsində çap edilmişdir**

**SCIENTIFIC-POPULAR
LITERARY-PUBLICISTIC
COLLECTION**

**It has been publishing twice
a month since January, 1995**

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Alirza BALAYEV

Editorial member:
**Jamal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Jamil HASANLI
Bahlul ABDULLA
Nizami JAFAROV
Afgan ABDULLAYEV**

Design by:
Rafig ABDULRAHIMOV

Computer graphics:
Yemen HASHIMOVA
Photoreporter:
Konul ALIYEVA

Address:
11 Mahsati str., Baku,
(near the "Neftchilar" metro)
Fax: 498-93-79
Phone: 421-79-16
421-10-93

Certificate: 255
Index: 67178
Order: 190
Copies: 3000

**The opinions of authors
and editors
could be independent
Manuscripts are not returned
Published by
Khazar University Press**

OXUYUN

Bu nömrədə



Qənirə PAŞAYEVA 12

DÜNYANIN İTİRDİYİ BÖYÜK ADAM



19 PSİXOLOJİ MƏSLƏHƏT VƏ PSİXOTERAPİYA MƏRKƏZİNİN TƏQDİMAT MƏRASİMİ



Eldanə CAMALOVA

YAXŞI MƏKTƏB NƏDİR? 20



Ülkər QARACALI

TƏLƏBƏMİZ AZƏRBAYCAN ÇEMPİONUDUR 22



23 **ВЫСТУПЛЕНИЕ ПРЕЗИДЕНТА БАРАКА ОБАМЫ НА ЦЕРЕМОНИИ ВРУЧЕНИЯ НОБЕЛЕВСКОЙ ПРЕМИИ МИРА**



29 НИЛУФЕР

«БЕССМЕРТНАЯ»

USAQ DÜNYASI 34

UNİVERSİTƏ XƏBƏRLƏRİ

QİÇS-Ə QARŞI MÜBARİZƏYƏ QOŞULUN!



Yaşadığımız dövrün mübahisəsiz ən böyük problemi olan QİÇS son zamanlar dünyada olduğu kimi, Azərbaycanda da gözəçarpan yayılma sürəti ilə seçilir. Problem QİÇS-in daha çox yayıldığı gənc nəsli və onların valideynlərini xüsusilə narahat edir. Məlum olduğu kimi, bu xəstəliklə mübarizədə maarifləndirmə olduqca vacib rola malikdir.

Bununla əlaqədar 1 Dekabr-Ümumdünya QİÇS-lə Mübarizə Günündə Xəzər Universitəsinin İqtisadiyyat və menecment fakültəsinin korpusunda QİÇS-lə bağlı tədbir keçirilib. Tədbirin məqsədi gənclərə QİÇS-in nə dərəcədə təhlükəli problem olmasını, mübarizə yollarını xatırlatmaq, gəncləri də bu mübarizəyə qoşulmağa çağırmaq idi.

Tədbirdə Azərbaycanda QİÇS-lə mübarizəyə qoşulmuş ilk azyaşlı, hal-hazırda universitəmizin İqtisadiyyat və menecment fakültəsinin 1-ci kurs tələbəsi olan Nərmin Kərimli və QİÇS-lə Mübarizə Mərkəzinin şöbə müdiri Sevinc Yunisova tələbələrə bütün lazımi məlumatları verdilər.

Azərbaycanda QİÇS-ə 2000-dən artıq insanın yoluxması faktı kifayət qədər böyük problemlə üz-üzə dayandığımıza növbəti sübutdur. Xəstəliyin daha çox qan, anadan övlada və cinsi yollarla keçməsi qeydə alınıb. Asqırmaq, öskürmək yolları ilə yoluxma halları isə hələ qeydə alınmayıb.

Həkimlərin ehtiyatsızlığı, narkotik maddələrin venadaxili qəbulu zamanı eyni iynələrdən bir neçə insanın istifadə etməsi, gözəllik salonlarında sterilizə olunmamış ləvazimatlardan istifadə edilməsi qanla yoluxmaya səbəb olan amillərdəndir.

Bu xəstəliyə yoluxan insanların cəmiyyətdə rastlaşdıqları diskriminasiya probleminə də xüsusi diqqət yetirildi. Diskriminasiyaya uğramış xəstələrin xəstəliklə mübarizəsi daha çətin olur. Belə xəstələr onları özündən uzaqlaşdırmış cəmiyyətə qarşı kinli olur və ondan heyif almaq üçün bəzən ən ağlasığmaz addımlar atırlar. Belə addımlar bəzən olduqca böyük təhlükələr yarada bilir. Əslində isə bu xəstələrin bizdən daha çox qayğıya, diqqətə ehtiyacı var. Özümüzü qorumaq adı ilə gördüyümüz bu faydasız "tədbir" bizim cəmiyyətimizin, bizim bir parçamız olan şəxsin onsuz da təhlükədə olan həyatını daha da qısaldır.



Xəstəliklə bağlı daim yadımızda saxlamalı olduğumuz digər bir amil bu xəstəliyin simptomlarının olduqca gec üzə çıxmasıdır. Məhz buna görə də, vaxtaşırı müayinədən keçmək olduqca vacibdir.

Tələbələrin diqqətinə səbəb olan tədbirdə 1-ci kurs tələbələri Elçin Hüseynov və Roman Usubov çıxış edənlərə sualla müraciət etdilər.

Əziz gənclər, siz də bu mübarizəyə qoşulun! Siz də QİÇS-ə "YOX" deyən milyonlarla gəncdən biri olun!

Ülkər QARACALI,
tələbə,
İqtisadiyyat və menecment fakültəsi
Xəzər Universitəsi

VI BEYNƏLXALQ ELM OLİMPİADASININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ

Dekabrın 3-də Bakıda, "Buta" sarayında VI Beynəlxalq Elm Olimpiadasının təntənəli açılışı olmuşdur. 15 yaşlı yeniyetmələr arasında fizika, kimya və biologiya fənləri üzrə keçirilən olimpiadanın açılış mərasimində 49 ölkədən gəlmiş 600-dən çox şagird və onların müəllimləri iştirak etmişlər.

Mərasimdə iştirak edən elm, sənət və hökumət adamları sırasında Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı da vardı.

ARTIFICIAL LIFT METHODS - PRESENTED BY RUFAT MALIKOV

Rufat Malikov is working as a Gas Lift Engineer in Schlumberger, one of the main subsurface engineering contractors of BP in Azerbaijan. Rufat has professional experiance in both of these international companies.He presented a lecture on "Artificial Lift Methods / Gas Lift" hosted by Khazar University. Though it happened on 5-th of December 2009, 54 students from various local universities interactively attended the seminar and contributed with lots of interesting questions and comments.

One of the objectives of Petroleum Engineers is to maintain efficient production throughout the lifetime of the wells. This may be achieved via applying different Artificial Lift Methods adding extra energy to assist reservoir energy in order to obtain better production rates. Statistics show that 94% of the world oil production is achieved by utilizing Artificial Lift technologies like Sucker Rod Beam Pumps, Hydraulic Pumps, Electrical Submersible Pumps, Progressive Cavity Pumps, Gas Lift, etc. Gas Lift is one the most widely used methods to maximize production by taking full advantage of energy available in the reservoir.

On his lecture Rufat explained what is the logic behind each of these Artificial Lift methods and how engineers achieve higher production by utilizing these methods. He also talked in deeper about Gas Lift, its requirements and equipments used in this method. After the presentation it was clear that fundamental principle of Gas Lift is to inject gas through the possible deepest injection point. Well deviation, reservoir pressure, PI, compressor injection pressure, injection rate, etc are the constraints that define the depth of the single point of injection together with the depth of other valve stations in the well. Operating injection occurs from the annulus to the tubing at the specific depth and production pressure leakage to the annulus from the tubing is prevented by one way check valve installed on the nose of the valve. Main subsurface equipments in Gas Lift are Side Pocket Mandrels, Retrievable Valves and Latches. Different types of this equipments were shown on the slides and the purposes of each of them explained seperately.

Unloading sequence and procedure of gas lift wells, kickoff the well, mandrel manufacture, high technology valves, valve mechanics are just few interesting parts in this topic. Besides fancy powerpoint presentation material, video materials showing each type of Artificial Lift methods were introduced in order to better understand the picture of the processes involved.

Many interesting technical questions were raised from the audience about the subject, which showed students' interest on the topic.

Gunel MURAD,
student,
School of Architecture, Engineering and Applied Sciences,
Khazar University

RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRLİYİNDƏ GÖRÜŞ

Dekabrın 8-də Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı Xəzər Universitəsi Himayəçilər Şurasının (Board of Trustees) qurulması ilə əlaqədar Rabitə və İnformasiya Texnologiyaları naziri professor Əli Abbasovla görüşdü. Nazirlikdə keçən bu görüşdə Xəzər Universitəsinin inkişafı ilə əlaqədar digər məsələlər də müzakirə olundu.

"BAKI İSLAM MƏDƏNİYYƏTİ ƏCNƏBİLƏRİN GÖZÜ İLƏ"

Dekabrın 9-da Turizm İnstitutunda "Bakı İslam Mədəniyyəti əcnəbilərin gözü ilə" adlı konfrans keçirildi. Konfransda Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı da iştirak və çıxış etdi.

ULU ÖNDƏRİN ANIM GÜNÜ

Xalqın öz adından danışmaq haqqını kimə tapşırması olduqca çətin qərardır. Prezidentlər bu haqqı qazanmış insanlardır. Milyonların nə düşündüyünü, nə demək istədiyini bütün dünyaya çatdırmalı olan seçilmiş insanlardır. Xalqla prezident arasındakı işbirliyi qarşılıqlı inam, etimad və sevgiyə əsaslanır.

Heydər Əliyev bu etimadı, sevgini, inamı 35 il ərzində saxlamağı, qorumağı bacarmış nadir prezidentlərdəndir. Bunları bacarmış bir insanın xalqımızın qəlbində yeri bir başqadır. Adının çəkildiyi, surətinin canlandığı yerdə insanların qəlbinə ümid və qürur dolur. Dekabrın 12-də ölkəmizin hər yerində bu böyük insanın ölümünün 6-cı ildönümü münasibətilə tədbirlər keçirildi, H.Əliyev haqqında xatirələr canlandı, nitqlər söyləndi.

Bizim də fakültədə anım mərasimi keçirildi. Tədbir universitəmizin müəllimi Yeganə Axundovanını çıxışı ilə açıldı. O, H.Əliyevlə bağlı təəssüratlarını tələbə və müəllimlərlə bölüşdü. Tələbələr də H.Əliyevin bir vətəndaş kimi onlarda yaratdığı fikir və düşüncələrini müzakirə etdilər.

Sonda Yeganə Axundova H.Əliyevə həsr etdiyi musiqiyə çəkilmiş klipi təqdim etdi.

Sonra tələbələrimiz H.Əliyevin xatirəsini onun adını daşıyan sarayın qarşısında ucalan heykəlinin önünə əklil qoymaqla yad etdilər.

Xalqımızın belə insanlara sevgisi və hörməti sonsuzdur, ölməzdir.

Ülkər QARACALI,
tələbə,
İqtisadiyyat və menecment fakültəsi
Xəzər Universitəsi

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRİ PROFESSOR MİSİR MƏRDANOV XƏZƏR UNİVERSİTƏSİNDƏ



Dekabr ayının 12-də Azərbaycan Respublikasının təhsil naziri professor Misir Mərdanov Xəzər Universitəsində oldu. Nazir Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlının və digər məsul şəxslərin müşayiəti ilə universitənin bu tədris ilinin əvvəlində istifadəyə verilmiş (binanın rəsmi açılışı hələ olmamışdır) yeni 7 mərtəbəli tədris binası ilə tanış oldu, tələbələr üçün yaradılmış şəraitlə maraqlandı. Binada yerləşən, ən müasir kompüterlərlə təchiz edilmiş kompüter mərkəzləri, müasir yazı lövhələri, proyektorlarla təchiz edilmiş geniş və işıqlı auditoriyalar onun diqqətini cəlb etdi. Bir neçə auditoriyaya daxil olan nazir müəllim və tələbələrlə fikir mübadiləsi etdi.

Binanın 5-ci və 6-cı mərtəbəsində yerləşən universitə kitabxanasını diqqətlə gəzən nazir kitabxanada yaradılan şəraitdən zövq aldığını gizlətmədi. Kitabxanada yaradılan belə şəraitin başqa heç bir ali məktəbdə olmadığını qeyd edərək, həmin vaxt kitabxanada olan bir qrup tələbə ilə səmimi söhbət etdi.

Təhsil naziri, həmçinin, yeni tədris binasının bütövlükdə 1-ci mərtəbəsini əhatə edən yeməkxana ilə də tanış oldu, həmin vaxt yeməkxanada oturan və qabaqlarında şəxsi kompüterləri olan bir qrup tələbəyə yaxınlaşaraq, səmimi söhbət etdi.

Binanın 7-ci mərtəbəsində hazırda tamamlanmaqda olan akt zalı ilə tanış olan nazir təhsil nazirliyinin növbəti kollegiya iclaslarının birinin Xəzər Universitəsində keçirilməsi təklifini irəli sürdü: "Kollegiya iclaslarımızdan birini burada keçirək, qoy nazirliyimizin işçiləri və ali məktəb rəhbərlərimiz də burada tələbələr üçün yaradılmış bu gözəl şəraitlə yaxından tanış olsunlar".

Təhsil naziri, həmçinin, yeni tədris binası və ümumiyyətlə Xəzər Universitəsi haqqında geniş yazı hazırlanması və bunun "Azərbaycan müəllimi" qəzetində dərc olunması vacibliyini qeyd etdi.



İSRAELI AMBASSADOR AT KHAZAR UNIVERSITY

On December 14, 2009 Ambassador Extraordinary and Plenipotentiary of Israel to Azerbaijan Republic Mr. Michael Lavon Lotem visited Khazar University. He has been received by Khazar University Founder and President Prof. Hamlet Isaxanli. The parties discussed questions of cooperation between Khazar Universsity and Israeli universities, stating that there are good opportunities for development of this cooperation.





Then Mr. Michael Lavon Lotem had a meeting with Khazar University students organized by the Institute of Politics. Director of the Institute of Politics Baba Bayramli welcomed the guest and introduced him to meeting participants. Ambassador Michael Lavon Lotem had a public speech on "Middle East Peace Process.". In the end of the meeting, Mr. Michael Lavon Lotem answered questions put by the students.

Universitəyə məktub

MİNNƏTDARLIQ

Bilgəh qocalar evinin sakinləri və öz adımdan sizə minnətdarlığımızı bildiririk ki, rəhbərlik etdiyiniz kollektiv və tələbələriniz Qurban bayramını bizimlə birlikdə və çox yüksək səviyyədə keçirdilər. Zəngin süfrə açılmasına və bizimlə doğma övlad kimi davranışlarına görə sizə "çox sağ ol" deyirik. Biz əminik ki, gələcəkdə onlar gözəl ailə başçıları və xanımları olacaq və öz valideynlərinin qocalar evinə üz tutmalarına imkan verməyəcəklər.

Bir daha İqtisadiyyat və menecment fakültəsinin tələbə və müəllim kollektivinə öz minnətdarlığımı bildirirəm.



Hörmətlə,
Bilgəh qəsəbəsi,
Qocalar evinin kollektivi və sakinləri
adından Mina Abdullayeva

ŞƏFQƏTİMİZİ ONLARDAN ƏSİRGƏMƏYƏK!



Biz cavanlar yaxılarımızın nəvazişi ilə əhatə olunmuşuq və sevgi dolu həyat tərzi keçiririk. Bizə yaxşıdırsa, demək həyat da gözəldir. Bizə pisdirsə, onda biz də həyata qara eynək arxasından baxırıq. Bir sözlə, çoxumuz burnumuzun ucundan uzağı görmürük. Ancaq başımızı qaldırıb uzaqlara baxsaq, köməyimizə ehtiyacı olanların, əslində, nə qədər çox olduğunu görərik.

Mən 2-ci kursda oxuyuram və bu iki il ərzində Xəzər Universitəsinin ehtiyacı olanlara – uşaq evlərinə, qocalar evinə köməyinin şahidi olmuşam. İstər uşaq evində, istər qocalar evində yadımda qalan və mənə daha çox təsir edən o ümid dolu gözlər, ümid dolu nəzərlərdir. Sanki o gözlər həmişə qapıya dikilir. Elə bilməyin ki acdılar, yemək istəyirlər. Yox!

Qohumları tərəfindən atılmış insanlara (qocalar evində çoxu belədir) mənəvi yardım daha çox lazımdır. Onlara oğul, qız və ən çox nəvə sevgisi lazımdır. 40, 50, 60 il qabaq bu insanlar da bizim kimi cavan ve gözəl idilər. Həyat eşqi ilə yaşayır, sevgi dolu günlər keçirirdilər, gələcəklə bağlı öz planları var idi . Evlənib, ailə-uşaq sahibi olmuşdular və bizim valideynlər kimi onlar da öz uşaqlarını sevgi və qayğı ilə böyüdüb, oxudublar. Yəqin ki, arzu və xəyallarında onlar da nəvə - nəticə oynadırdılar. Amma, sən saydığını say, gör fələk nə sayır...

Onlarla yaxından tanış olduqda, hər birinin ayrı-ayrılıqda necə maraqlı insan olduğunu görürsən. Bir evdə yaşasalar da, hərənin öz dünyası var. Bir qoca mənə otağını göstərib:

-Gör necə təmiz otağım var!- dedi. - Təmizləyib yığışdırıram ki, qonaqlarımın xoşu gəlsin.

Otaq, doğrudan da, çox təmiz idi. Yatağın üstü səliqə ilə düzəlmişdi, paltarlar qatlanmışdı. Başqa birisi məni çağıraraq:

-Gəl mənimlə şəkil çək.-dedi.- Röya ilə şəklim var, Natəvan ilə var, qoy sənlə də olsun.

Bir qoca nənə üzünə bəzək-düzək vuraraq:

-Eh, mən çox qəşəng olmuşam. Elə indi də pis deyiləm – dedi.

Diqqətlə ona baxdım. Üzüyü, sırğası, qolbağı, boyunbağısı – hamısı yerində idi.

Onların hər biri bir insan taleyidir, xasiyyətləri də müxtəlifdir... Amma bizim gəlişimizə hamı sevinirdi, elə bil öz nəvələri gəlmişdi. Biz də gətirdiyimiz hədiyyələri onlara payladıq. Onlarla birlikdə oynadıq-oxuduq, yedik-içdik. Qurban bayramını qeyd etdik. Vidalaşma anı gələndə gözlər ya-



şardı.

Deyilən sözləri, edilən hərəkətləri unutmaq olar. Amma o gözləri, bir anlığa sevincdən işıqlanan gözlərin yavaş-yavaş dumanlanaraq yenidən ümid dolu baxışlarla ardımızca baxdığını unutmaq olmur. O gözlər yol çəkir, kimi isə gözləyir. Allah insafsızlara insaf versin. O qocalıqdan sizin üçün də var...

Aydan HUSEYNOVA,
tələbə,
İqtisadiyyat və menecment fakültəsi
Xəzər Universitəsi

***

Qocalar evinə səfərimizdə bizə göstərdikləri köməyə görə Hacı Səmədə, Hacı Məlikməmmədə, Hacı Adilə, Bəxtiyar bəyə, Ənvər bəyə və Rəcəb bəyə, həmçinin tədbirdə yaxından iştirak edən işçi və tələbə heyətimizə öz dərin minnətdarlığımızı bildiririk.

İqtisadiyyat və menecment fakültəsinin rəhbərliyi



AZƏRBAYCAN TURİZM İNSTİTUTUNDA

ATİ BEYNƏLXALQ ƏLAQƏLƏR SFERASINDA

ATİ təkcə ölkəmizin ali təhsil sistemində həyata keçirilən müvafiq yeniliklərdən deyil, dünyanın aparıcı elm-təhsil mərkəzlərinin qabaqcıl təcrübəsindən layiqincə yararlanmaq məqsədilə beynəlxalq əlaqələr sahəsində əməkdaşlıq körpüsünün yaranmasını və möhkəmlənməsini qarşısına məqsəd qoymuşdur. ATİ ölkəmizin ali məktəblər coğrafiyasında son 4 ildə qərarlaşmasına baxmayaraq, Avropa Birliyi ölkələrinin qabaqcıl təhsil müəssisələri ilə tələbə və müəllim mübadiləsi sahəsində əlaqələrə böyük önəm verməkdədir. Misal üçün, Erasmus Mundus Xarici Əməkdaşlıq Pəncərəsi proqramı çərçivəsində Yunanıstan, Fransa, İtaliya, Latviya, Bolqarıstan, Portuqaliya və Niderlandın uyğun universitetləri ilə tələbə və müəllim mübadiləsini uğurla həyata keçirməkdədir.

Ötən ay beynəlxalq əlaqələrin, eləcə də, mühüm layihələrin gerçəkləşməsində institutun da payı olmuşdur. Belə ki, noyabrın 23-24-də Türkiyə Cümhuriyyətinin İstanbul şəhərində Beynəlxalq Universitetlər Assosiasiyası və İstanbul Universitetinin birlikdə təşkil etdiyi Avrasiya rektorlar toplantısında Azərbaycan Dövlət Neft Akademiyasının rektoru akademik Səyavuş Qarayev, Qafqaz Universitetinin rektoru Ahmet Sanıç və Azərbaycan Turizm İnstitutunun rektoru, tarix elmləri namizədi, dosent Cəfər Cəfərov iştirak etmişlər. "Ali təhsildə akkreditasiya və keyfiyyət" mövzusuna həsr olunmuş toplantıda Azərbaycan Turizm İnstitutu Beynəlxalq Universitetlər Assosiasiyasına üzv qəbul olunmuşdur. Səfər çərçivəsində C. Cəfərov Türkiyənin Mehtap TV kanalına, ölkənin aparıcı qəzetlərinə müsahibələr vermiş, Türkiyənin Qazi Universiteti, Fateh Universiteti və İstanbul Universitetində təşkil olunmuş görüşlərdə iştirak etmişdir.

Noyabrın 26-27-də isə C. Cəfərov Sankt-Peterburq şəhərində keçirilmiş "Turizm və Otelçilik üzrə İxtisaslaşmış Universitetlərin və İşəgötürənlərin Qarşılıqlı Fəaliyyət Strategiyası üzrə Beynəlxalq Forum"un MDB ölkələrindən xidmət və otelçilik üzrə yeganə iştirakçısı olmuşdur. Beynəlxalq Forumun iştirakçıları tərəfindən yaradılan Xidmət üzrə İxtisaslaşmış Universitetlərin Milli Elmi-Təqdiqat Texnoloji Konsorsiumuna Azərbaycan Turizm İnstitutu yekdilliklə üzv qəbul olunmuşdur.

ATİ yola salmağa hazırlaşdığımız ildə daha 2 təşkilatın – Xəzər Dənizi Assosiasiyası və AUDEM (Demokratiya üçün Universitetlər Assosiasiyası) təşkilatlarının üzvlüyünə qəbul edilmişdir.

2009-cu il Azərbaycan Turizm İnstitutu üçün beynəlxalq əlaqələrin yaranması və möhkəmlənməsi sahəsində uğurlu olmuşdur.



Sabina Heybatova *was born in 1982 in Baku. She has graduated from Khazar University, School of Humanities and Social Sciences in 2005. While studying at Khazar University, she also worked as a part time employee for various foreign and local companies as an office manager, translator and accountant.*

In 2007 Sabina won the award of the American Embassy to Azerbaijan and was granted with an opportunity to continue her MA education in Tbilisi, at Georgian Institute of Public Affairs (GIPA), the faculty of Journalism and Media Management. She successfully defended a thesis and in 2009 she got her Master's Diploma on Media Management.

Here below we give an extract form her Diploma Work.

RELIGIOUS TOLERANCE IN AZERBAIJAN

Azerbaijan is a Muslim country. The majority of people populating it are Muslims. But as Azerbaijan is a multicultural and international country, there're other religions co- existing here as well.

When we start talking about other religions officially existing in Azerbaijan, the representatives of other countries wonder whether religious tolerance has its place in Azerbaijan or not. How tolerant are Muslims living here to representatives of other religions and to other religions themselves? In order to find it out we have interviewed representatives of different religions and confessions.

Rabbi Meir Brook, the head of European Synagogue in Azerbaijan, is from Israel. He says that he is very happy that he works in Azerbaijan. He has been working here for many years. By his words, Azerbaijani people are very tolerant to other religious belongings.

Rabbi Meir also says that, even when he is walking in the street on Shabbat (Saturday, the holy day of Jewish, on which they don't work, don't do anything and don't even drive a car), people stop their cars and offer to give him a lift for free. "They can see that I'm Jewish from my beard and hat and nevertheless they respect me", says Rabbi Meir.

He also says that not only people, but also the government of Azerbaijan Republic treats Jewish Synagogue very well. The government of Azerbaijan Republic has facilitated to opening of Jewish school in Baku.

Rabbi says that he never feels any difference between Muslims and Jewish.

"I consider Azerbaijan nation to be a very tolerant one, and I want Azerbaijan to be a very good example for other nations", says Meir Brook.

There's also a Catholic Church in Azerbaijan and every day a number of visitors from different nationalities visit this church.

The Head of Catholic Church in Azerbaijan Father Johan Chaplan says that Christianity has been being preached in Azerbaijan since the 1st century. The excavations of Kish's Church, which was reconstructed, prove that dieses existed in Azerbaijan since that time.

He also says that, when Azerbaijan became independent the representatives of Catholic Church came here to reconstruct the church that once was destroyed by Stalin in 1934.

Father Johan says that, the Catholic Church was officially registered in Azerbaijan in 1997. Later, the president of Azerbaijan Republic Heydar Aliyev invited Pope Johan II to Azerbaijan.

"A lot of nations have always been populating Azerbaijan and the tolerance was always present", concluded Father Johan.

The representative of the Orthodox Church in Azerbaijan Father Konstantin says that, the government of Azerbaijan Republic treats the Orthodox Church very well. And none of holidays or any other celebrations pass without participation of Orthodox Church.

He also claims that, especially in Azerbaijan,

three religions, Judaism, Islam and Christianity are all so joined and treated so well by each other that, none of the decisions referring to religious issues is managed without their mutual consent.

"Local population treats us very well and I haven't met with any unpleasant moments", says Father Konstantin.

Krishnaism isn't very popular in Azerbaijan. The representative of "Krishna's Consciousness" Ramin says that, the attitude of people to this religion is quite different. Some people think that this philosophy has an ancient history, whereas the others do not agree with this statement. They do not accept any other religious views, but their own.

"Most people in Azerbaijan are very tolerant. Our entire a 20 year local existence can easily make a witness to this. It shows that, we are being treated very well", says Ramin.

Bayram Hoja is the Imam of "Ilahiyyet" Mosque. He is from Turkey. It has been already five years that he is taking part in religious activity in Azerbaijan. He sees Azerbaijan as an exemplary state with flexibility and tolerance.

Bayram Hoja says that, every local person follows the preferred religion and there is not any side interference towards this choice. Though Azerbaijan is a Muslim country, it doesn't interfere with other religions.

"There is also not any kind of interreligious rivalry in Azerbaijan; various religions are free to practice their face in different places or workshops", says Bayram Hoja.

Haji Salman Musayev, the Deputy of Administration of Muslims of the Caucasus says that, Azerbaijan is situated on such a location of Caucasus that historically different nationalities have always peacefully co existing d here.

Representatives of those nationalities are still populating the country. That's why each nationality is the follower of the religion they belong to. Those religions are still being practiced until present. Azerbaijanis are used to it and do not consider it to be something extraordinary. They treat all the religions in a good way.

Haji Salman also says that, respect to all other religions, is one of the most significant rules of Islam.

"Where is tolerance, there is stability. We inherited it with wisdom from our ancestors and thanks to God, it works", says Haji Salman Musayev.

"VI BEYNƏLXALQ ELM OLİMPİADASI TƏKCƏ YENİYETMƏLƏR ÜÇÜN DEYİL, ÖLKƏMİZ ÜÇÜN DƏ OLDUQCA BÖYÜK ƏHƏMİYYƏT KƏSB EDİR"

"VI Beynəlxalq Elm Olimpiadası təkcə yeniyetmələr üçün deyil, ölkəmiz üçün də olduqca böyük əhəmiyyət kəsb edir. Ona görə ki, Azərbaycanda təhsilin, elmin inkişafı istiqamətində aparılan islahatlar belə möhtəşəm tədbirlər vasitəsilə dəstəklənir və gənclərin bu sahələrə marağının artmasına gətirib çıxarır."

Bu sözləri Yeniyetmələrin VI Beynəlxalq Elm Olimpiadasının başa çatması ilə bağlı dekabrın 10-da keçirilən tədbirdə iştirak edən xarici işlər nazirinin müavini, Azərbaycan Diplomatik Akademiyasının rektoru, olimpiadaya hazırlıq məqsədi ilə yaradılmış Elm Komitəsinin rəhbəri Hafiz Paşayev jurnalistlərin suallarını cavablandırarkən demişdir. Rektor bildirmişdir ki, ötən 8 gündə gənclər öz biliklərini, bacarıqlarını nümayiş etdirə bilmişlər. Bu möhtəşəm bilik yarışı xalqlar arasında dostluq əlaqələrinin inkişafına təkan verəcəkdir. İnanıram ki, olimpiada iştirakçıları Azərbaycandan vətənlərinə çox böyük təəssüratla dönəcəklər.

H.Paşayev bildirmişdir ki, Yeniyetmələrin VI Beynəlxalq Elm Olimpiadasının yüksək səviyyədə təşkil edilməsi üçün bütün işlər görülmüş və bunu iştirakçı dövlətlərin nümayəndələri də təsdiqləmişlər. İştirakçılarla söhbətlərimiz zamanı onlar olimpiadanın yüksək səviyyədə keçirilməsi üçün yaradılan şəraitdən razılıqla danışmışlar.

SERGEY MİXALKOV ADINA BEYNƏLXALQ ƏDƏBİ MÜSABİQƏ ELAN OLUNUB

Yeniyetmələr üçün əsərlər yazanlar arasında Sergey Mixalkov adına müsabiqə elan olunub. Rusiya İnformasiya-Mədəniyyət Mərkəzindən APA-ya verilən məlumata görə, Rusiya Mədəniyyət Fondu və Rusiyanın Uşaqlar üçün Kitab Şurası 2010-cu ildə yeniyetmələr üçün ən yaxşı əsər uğrunda Sergey Mixalkov adına Beynəlxalq ədəbi müsabiqə elan edib. Müsabiqədə Rusiya yazıçıları ilə yanaşı yaxın və uzaq xaricdə yaşayan rus dilində yazan yazıçılar da qatıla bilər.

ŞƏXSİYYƏTLƏR

Qənirə PAŞAYEVA
millət vəkili

DÜNYANIN İTİRDİYİ BÖYÜK ADAM

İkinci yazı



1978-ci il. Atatürkün 100 illik yubileyinin YUNESKO-nun üzvü olan 152 ölkədə eyni anda keçirilməsi təklifi müzakirə edilərkən, İsveç nümayəndəsi ayağa qalxaraq, etiraz edir: "Necə yəni? Dünyada nə qədər dövlət xadimi var, hamısının yubileyini qeyd eləməliyik məgər?" Bu kinayəli sual qarşısında Rusiyanın nümayəndəsi yerindən dik atılaraq, yumruğunu masaya vurur və 152 ölkənin təmsilçilərinə belə deyir: "Gənc nümayəndə dostların yadına salmaq istəyirəm ki, Atatürk sadəcə böyük bir dövlət xadimi deyildir. Atatürk, bu çağa öz möhürünü vuran insandır. Yaxşı olardı ki, onu yad etməklə qalmayaq, həm də onun əməllərindən özümüz üçün nümunə götürək."

Bəs sonra? Təklifin imzaya açıldığı gün İsveç nümayəndəsi mikrofona yaxınlaşaraq, belə deyir: "Mən Atatürkü araşdırdım. Bütün ölkələrin nümayəndələrindən üzr istəyərək, ilk imzanı özüm atıram."

Bu, YUNESKO-nun tarixində ilk və tək belə hadisədir. Təklifin əleyhinə səs verən və ya bitərəf qalan heç bir ölkə olmadı. 152 ölkənin nümayəndəsi bizim üçün bir qürur, sevinc və iftixar qaynağı olan bu mətni imzalamışdı: "Atatürk kimdir? Atatürk, beynəlxalq tolerantlıq, sülh və əməkdaşlıq uğrunda çalışan ali insan, fövqəladə inqilablar həyata keçirmiş bir inqilabçı, istilaçılıq və müstəmləkəçiliyə qarşı mübarizə aparan ilk liderdir. İnsan hüquqlarına hörmətlə yanaşan, ümumdünya sülhünün öncüsü, həyatı boyu insanlar arasında rəng, dil, din, irq fərqi qoymayan tayıbərabəri olmayan bir dövlət xadimidir. Türkiyə Cümhuriyyətinin qurucusudur".

Bəli, 152 ölkənin imzaladığı bu həqiqətləri dedirdən Qazi Mustafa Kamal Atatürkdür. Bütün Türk dünyasının qüruru olan böyük Atatürk!

29 oktyabrlar, 10 noyabrlar artıq onun prinsiplərini, inqilablarını, İstiqlal savaşı və sivilizasiya mübarizəsi yolundakı tövsiyələrini, əhəmiyyətini, niyələrini, nə üçünlərini müzakirə edərək, açıqlayaraq, düşünərək, mənimsəyərək, anlayaraq, tətbiq edərək öyrətməli olduğumuz, sevdirməli olduğumuz tarixlərə çevrilməlidir.

İnanırıq ki, Türkiyənin xilasını və yüksəlməsini başqa ölkələrin liderlərində və ya sistemlərində axtarmaq qəflətinə düşənlərə ən yaxşı cavabı atatürkçülüyün keçmişdə yaşanmış parlaq bir hadisə deyil, bügünkü və sabahkı problemlərin həllinə kömək edəcək aktual, mötəbər və yol göstərici bir sistem olduğunu izah edərək verilə bilər.

71 il əvvəl aramızdan gedən Atatürk, hansı cəhəti ilə ələ alınırsa alınsın, yaşadığı çağa damğasını vurmuş və tarixin unudulmazları arasındakı mötəbər yerini tutmuşdur. Varlığını yalnız düşüncələri və sözləri ilə deyil, özündən sonra qoyduğu əsərləriylə də isbat etmişdir. Atatürkün "ən böyük əsərim" dediyi Cümhuriyyət inqilabı ilə ümmət toplumundan dünyəvi-milli dövlətə keçilərkən, etnik və dini fərqlərə bağlı olmayan, fəqət dil, mədəniyyət və ideal birliyi kimi ortaq məxrəclərdə birləşən siyasi, hüquqi və sosial bir birlik əldə edilmişdir.

Milli dövlətin var olması və daha da güclənməsi, bu ortaq məxrəclərin hər kəs tərəfindən səmimi bir şəkildə mənimsənilməsi və qəbul edilməsi ilə mümkündür.

Ölkə, millət, hakimiyyət ünsürləri, qanunvericilik, icra və mühakimə orqanları baxımından vahid unitar dövlət; ədalət prinsipinin qorunmasının, bölgəçiliyə və irqçiliyə yol verilməməsinin və azlıqlar yaradılmamasının qarantiyasıdır.

Dünyəvilik prinsipi Türkiyə Cümhuriyyətini meydana gətirən bütün dəyərlərin təməlidir. Türkiyənin var olma fəlsəfəsidir. Konstitusiyalı rejimin əsasıdır.

Demokratiyanın bərqərar olması və yaşadılması, yalnızca dövlət və toplum nizamının ağıla və elmə istinad etməsi şəklində ifadə edilə biləcək dünyəvilik prinsipi sayəsində mümkündür.

Bu gün hər qarışı şəhid qanı ilə sulanmış müqəddəs Türkiyə torpağında, insanlar hürr, müstəqil, şərəfli və azad yaşaya bilirsə, bunu İstiqlal savaşında canları bahasına qələbə qazananlara və onların dahi komandanı Atatürkə borclu olduğunu əsla unutmamalıdır. Onu nüfuzdan salmağa və qurduğu cümhu-

riyyəti degenerasiyaya uğratmağa çalışanlar belə, təməlləri onun tərəfindən atılan sərbəstlik abhavasından istifadə etməkdədirlər. Uğrunda milyonlarla insanın ölümə göndərildiyi ideologiyalar tarixin dərinliklərində batarkən, əqli və elmi bir yanaşmanı əsas götürən Atatürkçü Düşüncə Sistemi dimdik ayaq üstündədir.

Unutmayaq ki, cümhuriyyətin, inqilabların, Türkiyənin varlığının və gələcəyinin qorunmasının yeganə yolu Atatürkçü Düşüncə Sistemidir.

Ölkənin bölünməz bütövlüyü, davamlılığı və millətin xoşbəxtliyi üçün gənc nəsillərinin üzərinə düşən ən böyük vəzifə, Böyük Atatürkün yadigarlarına sahib çıxaraq, demokratik, dünyəvi və sosial bir hüquq dövləti olan Türkiyə Cümhuriyyətini əbədi olaraq yaşatmaq, qarşılaşılan bütün çətinlikləri birlik və həmrəylik içərisində onun göstərdiyi ağıl və elm yoluyla dəf etmək olmalıdır.



Hətta Adolf Hitler belə Atatürkə heyranlığını açıq şəkildə deyirdi: "Mustafa Kamal, bir millət, bütün vasitələrindən məhrum edilsə belə, kəndini qurtaracak vasitələri yarada biləcəyini isbat edən adamdır".

O, həm də bütün insani xüsusiyyətləri ilə bir örnək idi. Atatürk örnəyi....

Atatürk, bu qədər böyük işlər görməsinə baxmayaraq, mövqeyini və şəxsiyyətini, yəni kim olduğunu bəlkə də ən yaxşı bilən bir liderdir.

İstanbul Universitetinin açılış mərasimi keçirilir. Sadə bir salonda stullar, ortada isə Atatürk üçün çox dəbdəbəli və bəzəkli bir kreslo qoyulmuşdur. Atatürk salona professorlarla birgə gəlir. Professorlar, Atatürkü kresloya dəvət etdiyində o, bir kresloya, bir professorlara baxır və: "Mənim sizlərdən öyrənməli olduğum çox şey var; buna görə bu kreslo ancaq sizlərə layiqdir" - deyərək, kreslonun yanındakı stula oturur və ən yaşlı professora kresloya oturmaqda kömək edir. Budur lider olmağın mahiyyəti: HAQQI OLMADIĞINA İNANDIĞI HEÇ BİR KRESLOYA OTURMAYAN BİR İNSAN.

Onun insani keyfiyyətləri onunla qısa bir təmasda olan insanlarda belə heyranlıq yaradırdı. Fransanın "Vu" qəzetinin əməkdaşı George Bennes 1938-ci ildə yazırdı: "Kamal Atatürkün xarakterinin bir hissəsini göstərmək üçün bir xatirəni xatırlamaq istəyirəm. Bizə savaşlardan birini danışırdı. Birdən durdu: "Görürsünüzmü" – dedi, - "bir çox zəfərlər qazandım. Amma bunların ən böyüyündən sonra belə hər axşam, savaş meydanında ölən bütün əsgərləri düşünərək, içimdə dərin bir kədər duydum".

Cəsarət və zəkasından başqa ürəyi bu qədər böyük və gözəl olan bir liderin ölkəsi üçün möcüzələr yaratmış olmasına şaşılabilirmi?

Atatürkü daha çox bir hərb və dövlət xadimi olaraq tanıyırıq. Halbuki Atatürk, 2008-ci, 2000-ci, 1978-ci, 1971-ci, 1938-ci, 1923-cü illərdə; Haitidən Hindistana, İngiltərədən Avstraliyaya qədər hər qitədə, hər an, dostundan düşməninə qədər hər kəsin qəlbində məhəbbət, minnətdarlıq, güvən və həsrət hisslərini eyni səmimiyyətlə yaşadan, dünya miqyasında böyük bir insandır...

Bu həqiqəti 21 noyabr 1938-ci il tarixində əcnəbi bir jurnalist belə ifadə etmişdi: "Belə dühalar ancaq zahirən ölürlər, həqiqətdə isə millətlərin zehnində dərin və silinməz izlər qoyan əsərləri ilə əbədi olaraq yaşamaqdadırlar. Belə insanlar müəyyən bir zaman və ya müəyyən bir coğrafiya üçün doğulmurlar. Onlar yüzilliklər boyu millətlərin tarixinə hökm edə bilən insanlardır."

Əfqan kralı Əmənullah Xan deyirdi: "O böyük insan yalnız Türkiyə üçün deyil, bütün Şərq millətləri üçün də ən böyük öndərdir".

Hind Parlamentinin nümayəndəsi Sucheta Krıpalani yazırdı: "Atatürk yalnız türk millətinin deyil, azadlıq, müstəqillik uğrunda savaşan bütün millətlərin öndəriydi. Onun direktivləri altında siz müstəqilliyinizə qovuşdunuz. Biz də o yoldan yürüyərək, müstəqilliyimizə qovuşduq." Hindistanın müstəqillik illərində ilk baş naziri olmuş Cavahirləl Nehru da Atatürk haqqında heyranlıqla danışırdı: "Kamal Atatürk və ya bizim onu o zamanlar tanıdığımız isimlə Kamal Paşa, gənclik günlərimdə mənim qəhrəmanımdı. Böyük inqilablarını oxuduğum zaman çox duyğulandım. Türkiyənin modernləşmə yolunda Atatürkün girişdiyi böyük çabaları heyranlıqla qarşıladım. Onun dinamizmi, yenilməz və yorulmaq bilməzliyi insanda böyük bir etki yaradır. O, Şərqdə modern çağın qurucularından biridir. Onun ən böyük heyranları arasında olmaqdayam" (1963).

Zatən önəmli olan, bu gün çox sıx rast gəldiyimiz kimi CANLI ÖLÜ olmaq yox, öldükdən sonra belə, bu qədər canlı bir şəkildə YAŞAMAQ deyilmi? Çünki həyat bu dərəcədə doğru və gözəl bir şəkildə yaşanıbsa, ölümün özü də bir həyatdır.

Əsl böyüklük, ondan uzaqlaşdıqca, özümüzü ona daha yaxın hiss etməyimiz deyildirmi? Çünkü böyüklük zamanla məhdudlaşdırılmır. Böyük insanlar həm keçmişin, həm də gələcəyin batmayan günəşləridir.

Bu həqiqəti Belçikanın Ankaradakı səfiri görün nə qədər sadə və gözəl bir şəkildə ifadə etmişdi: "An-



karada olanda daim günəşə baxırdım. Amma günəşi üfüqdə deyil, Çankayada görürdüm. Çünkü əsl günəş Çankayadakı Atatürk adlı günəş idi."

Bəs bu canlılığın sirri nədədir? Onun hərb xadimliyi cəhətimi, yoxsa dövlət xadimliyi cəhətimi? Yoxsa, tarixə keçən bu cəhətləriylə birgə, çox da bəhs edilməyən başqa bir cəhətimi? Bəli, onun günümüzdə də canlı olmasının əsl sirri insani cəhətidir. Atatürk hər ölkədən, hər yaşdan, hər cinsdən, hər rəngdən, hər dindən, hər dildən, hər təbəqədən olan insanların hər zaman məhəbbət və hörmət bəslədiyi, həsrət və qibtəylə yad etdiyi, nümunə götürdüyü BÖYÜK BİR LİDERDİR...

Yəni Atatürk, "ilin adamı" deyil, "çağın adamı" olan yeganə liderdir. Onun bu dərəcədə ümumbəşəri olmasının səbəbi "sarı saçlı, mavi gözlü bir div" olması, qarğaları hürkütməsi və ya adının Kamal olması deyil. Bu sirr Atatürkün tarixə keçmiş hərb və dövlət xadimliyindən başqa, onun İNSANİ CƏHƏTLƏRİNDƏDİR.

Atatürkün bu dərəcədə ümumbəşəri bir lider olmasını təmin edən və onu bir çox digər liderlərdən fərqləndirən xüsusiyyətin, onun insani cəhətləri olduğunu dedik. Bəs o necə bir insan və necə bir lider idi? Bu sualın cavabını Atatürkün xatirələrində, yaşadıqlarında və yaşatdıqlarında axtaracağıq.

Heç bir zaman təkəbbür göstərməmiş, hər şeyi ancaq xalqı, milləti, dünya xalqlarının rifahı və xoşbəxtliyi naminə etmiş, daim tolerant və təvazökar olmuş, sadəliyindən heç bir şey itirməmişdir.

İzmir zəfərindən sonra qatarla Ankaraya qayıdan müzəffər komandanla bağlı, Ankara valisinin bir xatirəsi: "Gecədən xeyli keçmişdi. Hər kəs çox yorğun idi. Mustafa Kamal bizimlə söhbətdən sonra istirahətə çəkilmişdi. Mən də onunla söhbət etmək üçün çox darıxırdım. Səhər açılan kimi Saleh Bozoka "Paşadan nə xəbər var?" dedim. "Yatır" dedi. Bir müddət sonra səbirsiz bir halda: "Hələ durmayıbmı?" deyə soruşdum. "Bəli, durmayıb" deyə qışqırdı. O zaman yanımızdakı kupeden onun səsini eşitdim: "Buyurun, bəyəfəndi; amma hələ geyinməmişəm..." "Hər halda tamam çılpaq deyilsiniz" dedim. "Yox, pencəyimi geyməmişəm" dedi. Qapını açıb girdim. Əynində şalvar və köynəklə ayaq üstündə dayanmışdı. Saqqalı uzanmış, üzünə yuxusuz keçən gecənin yorğunluğu həkk olunmuşdu. Köynəyini və şərfini yuduğunu gördüm. "Yorğun görünürsünüz" dedim. "Hə, yata bilmədim. Yastıq və adyal qoymayıblar; başımı qoluma söykədim, ağrıdı; pencəyimi yastıq eləmək istədim, üşüdüm. Yatmaq mümkün olmadı. Durdum" dedi. Heyrət və təəssüflə soruşdum: "Bəs nə üçün heç kimə demədiniz?" Təbəssümlə cavab verdi: "Hamı mənim qədər yorğun və yuxusuz idi. Narahat eləmək istəmədim." Mustafa Kamal Vətənini xilas etdikdən sonra İzmirdən Ankaraya bax bu şəraitdə qayıtmışdı".

Macarıstanın "Esti Ujsağ" qəzeti yazırdı: "O, yüzilimizdə "olmayacaq heç bir şey yoxdur" şəklində tarixi gerçəyi isbatlayan ilk adam olub". Alman tarixçisi Herbert Melziq yazırdı: "O, öz milləti və bəşəriyyət üçün bəslədiyi məhəbbətlə, bir dahinin nələr yaratdığına dair dünyaya fövqəladə həyəcanlı bir səhnə göstərməkdədir".

Atatürk, incəsənətin bir millətin həyatındaki yerini və əhəmiyyənini layiqiylə qiymətləndirə bilənlərdən idi. Hüsnxət sənətinin son ustadlarından Macid Ayralın başına belə bir hadisə gəlmişdi: Çanaqqala döyüşlərinin davam etdiyi vaxt, Macid Bəy Çanaqqalada əsgər imiş. Döyüşlərin dərin səngərlərdə aparıldığı günlərdə, Macid Bəy malyariyaya tutulur. Malyariya böhranının olmadığı vaxtlarda yazdığı gözəl hüsnxət nümunələrini səngərlərin divarına asırmış. Mustafa Kamal səngərləri təftiş edərkən, bu hüsnxət nümunələrini görür və çox xoşuna gəlir. Onları kimin yazdığını soruşanda və müəllifinin Macid Ayral olduğunu öyrənəndə, üzünü yanındakı adam-

lara tutaraq: "Bunlar sənət əsərləridir, bir ölkədə belə sənətkarlar asan yetişmir; belə bir sənətkarın burada nə işi var? Sabah onu tərxis edin" əmrini verir. Ertəsi gün Macid Ayral tərxis edilir.

Çanaqqalada güclü Avropa dövlətlərinə qarşı qəhrəmanlıq dastanı yazdığı o fövqəladə şərtlər daxilində, millətinin bağrında doğan sənət adamlarına belə bir həssaslıq göstərməsi və onları müharibədən uzaqlaşdırması, Atatürkün sənətə və sənətkara verdiyi qiymətin nümunəsidir.

Görün, Yunanıstan kimi o zamanlar Türkiyənin ən böyük düşməni olan ölkənin təmsilçisi Atatürklə bağlı nə deyir: "Türkiyə, dost və düşmənlərin heyran olduğu bir dahi adama malik olmaq kimi xoşbəxtliyə çatmışdır".

Fransız yazarı Gerard Tonqas yazırdı: "Bu, insanlığa təcrübədən keçmiş bir fəlsəfə örnəyi olaraq təqdim oluna bilər. Atatürk yüzillərə sığacaq işləri on ildə tamamladı".

2 mart 1998-ci il. Milli televiziya kanallarından birində ikinci xəbər olaraq 6 dəqiqə davam edən və 5 dəfə kadr böyüdülərək verilən bir xəbər yer aldı. Bu xəbər, Amerikada məşhur bir müzik-xollun sökülmədən, dünyada ilk dəfə tətbiq edilən bir metodla relslər üzərində 20 metr kənara sürüşdürülməsi və yerində yeni bir binanın yapılması haqqında idi.

1930-cu il. Atatürk Yalova köşkünə doğru çıxarkən, bağbanın qoca bir çinar ağacını kəsməyə hazırlaşdığını görür. "Sən həyatın boyu belə bir ağac yetişdirmisən ki, indi bunu kəsirsən?" deyə soruşur. Bağban cavab verir: "Paşam, çinarın kökləri köşkün bünövrəsini qaldırır. Yarpaqları da köşkün pəncərələrinə toxunur. Gərək ya köşkü itirək, ya da ağacı kəsək. Bu səbəbdən bizi üzürlü hesab edin, ağacı kəsmək məcburiyyətindəyik."

Atatürk bir an fikirləşir. "Xeyr, lazım gələrsə köşkü ağacdan uzaqlaşdırarıq" deyir. Yanındakı adamlar, "Bugün Mustafa Kamalda bir qəribəlik var, heç köşkü ağacdan uzaqlaşdırmaq olar?" deyirlər.

Atatürk nə memar, nə mühəndis, nə də aqronom idi. Amma o, heç bilirsiniz nə elədi? İstanbuldan Yalovaya tramvay relsləri gətirtdi, onları köşkün altına döşətdi və köşkü hərəkət etdirib, ağacdan 4 metr 80 santimetr kənara çəkdirərək, çinarı xilas elədi.

Bəli, bu hadisə 1930-cu ildə olmuşdur. Dünyada 1980-ci illərdən sonra ekologiyadan bəhs edilməyə başlandı. Mustafa Kamal 1930-cu ildə dünyaya konkret bir ekologiya dərsi vermişdi.

Fransız ədibi Klaude Farrere yazırdı: "O, uca bir dağa bənzyir. Ətəyində yaşayanlar bu ucalığı fərq edə bilməzlər. Bu dağın əzəmətini qavraya bilmək üçün ona çox uzaqlardan baxmaq gərəkdir".

5 may 1935-ci il. Məşhur arxeoloq Zübeyir Koşayın xatirələrindən: "Bilirsiniz ki, bütün arxeoloji qazıntıların aparılması haqqında əmr verən Mustafa Kamaldır. Muzeylərin açılması haqqında əmr verən də Mustafa Kamaldır. Amma indi olduğu kimi, "Açın! Qazın! İmza." şəklində deyil. Məsələn, Efesdə qazıntılar başladı, iki dəfə ora getdi. Konyada Assur qazıntıları başladı, işin başında yenə Atatürk var idi. Axlatlıbel qazıntıları başladı; bir baxdıq ki, işin başında torpaq alır, ölçür, biçir". Onun fikrinə görə, üstündə yaşadığımız torpaqların həqiqi sahibi ola bilmək üçün, bu ərazidə yaşayan toplumları və onların



meydana gətirdikləri mədəniyyətləri, qaynağından başlayaraq günümüzə qədər keçən müddət içində, layiqiylə öyrənib bilməliyik. Çankayada üç gün üç gecə yatmayaraq işləyir. Yatmamaq üçün alnına yaş dəsmallar qoyur. Tez-tez müxtəlif adamları yanına çağırır, müxtəlif adamlara telefon edir. Bir həyəcan, bir təlaş... Üç gündən sonra "Gəlin" deyir. Axlatlıbelə gedirik. Arxeoloqları ətrafına toplayır. Başlarında Zübeyir Koşay var. Mustafa Kamal həyəcanla deyir: "Qazdığınız yer yanlışdır; oranı yox, buranı qazmalısınız." Əcnəbi arxeoloqlar "Fəqət, paşam..." deyirlər. Demək istəyirlər ki, "Başa düşdük, böyük bir hərbçi, böyük bir dövlət xadimisiniz; amma bu iş bizim işimizdir. Niyə işimizə qarışırsınız?" Amma əmr böyük yerdən gəlib. Başlayırlar Mustafa Kamalın göstərdiyi yeri qazmağa. Nəticə necə oldu? Bütün tapıntılar oradan çıxdı.

İsveçin "Nya Dagling" qəzeti yazırdı: "O olmasaydı, modern Türkiyə olmazdı. Onun sayəsində türklər, onun möhtəşəm əsərini izləyə biləcəklər və zatən dünyaca çox yüksək olan şərəflərini daha çox yüksəldə biləcəklər". Həmin ölkənin nümayəndəsi professor Morrf isə yazırdı ki, Türkiyəni yaradan, tariximizin bu ən Böyük Adamını, başımı ən dərin hör-

mətlə eyərək salamlayıram.

